UOT 316.37

# ŞƏXSİYYƏTİN SOSİALLAŞMASININ AKTUAL PROBLEMLƏRİ

**A.M.İMANOVA**
***Bakı Dövlət Universiteti***
***azada69@mail.ru***

*Məqalədə sosial kommunikasiya və şəxsiyyətin sosiallaşmasının requlyativ funksiyaları probleminin mahiyyəti açıqlanır, sosial kommunikasiyanın, onun identifikasiya, refleksiya və rolunun qəbul edilməsi mexanizmi kimi fikir yaradıcı elementləri müəyyənləşdirilir. Bununla əlaqədar olaraq sosiallaşma prosesi zamanı şəxsiyyətin idrakında «mühit» haqqında model-ləşdirici təsəvvür yaradan onun daxili aləminin əhəmiyyəti də vurğulanır. Eyni zamanda sosiallaşma mühitinin kütləvi informasiya vasitələrinin köməkliyi ilə formalaşmasında sosial kommunikasiyaların funksiyalarının həyata keçirilməsindəki müsbət rolu araşdırılır, sosial kommunikasiyanın requlyativ funksiyalarının realizə olunmasında kütləvi informasiya vasitə-lərinin əhəmiyyəti xüsusi qeyd olunur, təhsil prosesinin fundamental humanitar rolundan, onun şəxsiyyətin sosiallaşmasına müsbət təsirindən də bəhs olunur.*

**Açar sözlər:** şəxsiyyətin sosiallaşması, sosial kommunikasiya, requlyativ funksiya, identifikasiya, subyektin identikliyi

Bu gün sübut etməyə ehtiyac yoxdur ki, cəmiyyətin müxtəlif sferalarında sosial çətinliklər, eləcə də sosiumda fərdlərin sosiallaşma problemlərinin kəskinləşməsi həm mövcud ictimai strukturların, həm də ayrıca fərdlərin və şəxsiyyətlərin təkrar istehsalı proseslərini təhlükə altına ala bilər.

Etiraf edilməlidir ki, təkcə Azərbaycanda deyil, digər postsovet məkanı ölkələrində şəxsiyyətin sosiallaşması problemi dərindən, yeni metodoloji texnologiyalar baxımından dəyərincə öyrənilməmişdir. Əgər əvvəllər problemin öyrənilməsi empirik baxımdan çətin idisə, hazırda bu vəziyyət konseptual praktikanın dəyərincə olmaması ilə izah edilməlidir. Fəlsəfə elmi, xüsusilə onun şəxsiyyəti öyrənən ayrı-ayrı istiqamətləri hələ də özünə adekvat tarixi inkişaf və müasir dünyanın sosial quruluşunun fəlsəfi konsepsiyalarının axtarışındadır.

Ölkəmizdə şəxsiyyətin sosiallaşması problemlərinin tədqiqini ləngidən ən mühüm obyektiv şərtlərindən biri bu idi: nə qədər ki, iqtisadi inkişaf üçün meydan var idi, sosiallaşdırma prosesləri əsasən böhransız baş verirdi, çünki ictimai həyatın, "geniş təkrar istehsalı" nisbi sabit və dəyişməz məcrada keçirdi. Ölkənin ekstensiv iqtisadi inkişaf şəraiti vətəndaşların, xüsusilə gənclərin təhsil və istehsal sahəsində inteqrasiyasına və adaptasiyasına imkanlar açırdı. Məhsuldar qüvvələrin inkişafının aşağı səviyyəsi, xüsusilə gənclərin ixtisas

hazırlığına, həmçinin onların həyata hazırlığı problemlərinə o qədər də tələbkarlıq aşılamadığından, demək olar ki, əmək və sosial inteqrasiya da problemsiz həyata keçmişdir.

Uzun çəkən keçid şəraiti müasir humanitar elmlərdə sosiallaşma problemlərinin təhlilinə yanaşmaların qənaətbəxş olduğunu üzə çıxartdı. İlk növbədə bu yanaşmaların mücərrədliyi aşkar edildi. Mücərrədlik bunda təzahür edirdi ki, yeni nəsillərin sosiallaşma proseslərinin tədqiqində hələ də şəxsiyyətə institutlar tərəfindən məqsədyönlü təsir, yeni ictimai mühitin real şəraiti nəzərə alınmadan insanların tərbiyəsi üzrə metodik göstərişlərin işlənib hazırlanması vurğulanır, halbuki məhz mühitin təsiri çox dəyişmiş, yeni formalar almış, yeni məzmun kəsb etmişdir. Bu məqamı yalnız qeydə almaq kifayət etmir daha vacib məsələ, ortaya çıxan problemləri adekvat qiymətləndirilməsi, onun dərindən təhlilidir. "Tərbiyəçilərin" və müxtəlif səviyyəli və istiqamətli "sosiallaşdırmaların" nəzəri və metodik "acizliyi" bu gün nütəxəssislər tərəfindən açıq aşkar etiraf edilir. Müasir tədqiqatlarda sosiallaşma subyektlərinin real vəziyyəti nəzərdən keçirilərkən daha çox "idealın iflası", "tərbiyənin fəlakəti", "insan dəyərlərinin və insaniyyətin iflası", "Humanizmin iflası" sözlərini daha çox eşidirik (1).

Belə dəyərləndirmədən söhbət düşərkən nəzərə almaq lazımdır ki, sosiallaşma prosesi, onun qanunauyğunluqları, formaları, tipləri barədə suala cavab sosial nəzəriyyə üçün, hər şeydən əvvəl, sosial sistemin özünün mühüm xarakteristikalarında özünütəkrar istehsalı haqqında suala verilən cavabdır. Bu, sosial gerçəkliyin quruluşu haqqında müvafiq təsəvvürlərin "həqiqiliyinin" immanent meyarıdır.

Biz istəsək də, istəməsək də, hər bir sosiallaşma nəzəriyyəsinin sirli, yaxud açıq şəkildə nəinki ümumsosioloji konsepsiyanı, həmçinin tarixi prosesin sosial-fəlsəfi konsepsiyasını özündə ehtiva edərək bütövlükdə sosial gerçəkliyin, eləcə də insanın mahiyyəti haqqında suala cavab verir.

Bu kontekstdə sosiologiya klassiklərinin bəzi ideyalarını xatırlatmaq, bizcə, yerinə düşər. Məsələn, E.Dürkheym uşaqların və gənclərin inkişafı üçün ictimai strukturların əhəmiyyəti və yerini aydınlaşdırarkən göstərirdi ki, tərbiyə cəmiyyətin ən vacib vasitəsidir. "Bunun sayəsində cəmiyyət öz uşaqlarında onların mövcudluğu üçün ən vacib şərtləri hazırlayır" (2). Dürkheymin fikrincə, məhz bu vasitə sayəsində aydın olur ki, anadan eqoist, qeyri-sosial doğulan insanın mahiyyətinə bir yeni sosial mahiyyət də əlavə olunur ki, bunun da sayəsində əxlaqi və sosial həyatını yaşamaq qabiliyyəti qazanır. Əslində, Dürkheym görkəmli sosioloqlardan biri kimi nəinki ictimai prosesin şəxsiyyətin inkişafına sosial təsirinin əhəmiyyətini qeyd etmiş, həmçinin ilk dəfə olaraq öz mühazirələrində "tərbiyə" və "sosiallaşma" anlayışını bir sistematik əlaqədə verə bilmişdir.

Qərbdə artıq keçən əsrin 30-cu illərindən başlayaraq "insan-mədəniyyət" münasibətlərinə marağın artması ilə bağlı bu və ya digər substansiyalarda nəinki uşaqların, müxtəlif sosial qrupları təmsil edən yaşlıların, eləcə də müx-

təlif sosial fəlsəfə, sosiologiya, sosial psixologiya sahəsində "sosiallaşma" anlayışı geniş təbliğ olunmağa başlayır (3).

Təbii ki, biz sosiallaşma ilə bağlı mövcud ədəbiyyatın hamısının icmalını vermək fikrində deyilik. Yalnız bunu qeyd etmək istərdik ki, sosiallaşmanın tərifinin müxtəlif variantlarında bir məqam xüsusilə vurğulanır: bu proses insanların sosial normaları mənimsəməsi və onları öyrənərək rəhbər tutması prosesidir. Sosiallaşma "cəmiyyətin möhkəmliyini, saxlanmasını və onun mədəniyyətinin nəsillərə ötürülməsini təmin edir."

Bizim məkanda fəaliyyət göstərən filosof və sosioloqlara çoxdan aydındır ki, "fəaliyyət nəzəriyyəsi sosial-tarixi prosesin ümumi nəzəriyyəsi olmaqla özündə sosiallaşma probleminin prinsipial həllini daşıyır. Bu nəzəriyyə insanın ümumiyyətlə insan kimi sosial təkrarını deyil, onun fəaliyyətinin spesifik ictimai-tarixi strukturunun prinsipial mexanizmini aşkarlayır" (4).

Belə sosiallaşmanın nə olması ilə onun həyata necə keçirilməsi məsələsində tədqiqatçılar arasında tam metodoloji anlaşılmazlıq yaranmışdır. Bizə elə gəlir ki, sosiallaşmanın sosial konstruksiya kimi reallığın sosial konstruksiyası ideyası çərçivəsində nəzərdən keçirilməsi daha məhsuldar mövqedir. Bu ideya məcrasında fərdin bioqrafiyası sosiallaşmada hər biri müxtəlif mənaya malik ardıcıl həyat fazaları kimi həyata keçirilir.

Bu istiqamətin başlıca nümayəndələri P.Berger və T.Lukman sosiallaşmanın iki əsas formasını ilkin və ikinci sosiallaşmanı fərqləndirirlər, bu zaman fərdin və cəmiyyətin taleyi üçün ilkin sosiallaşma həlledici əhəmiyyətə malikdir. "İlkin sosiallaşmada identifikasiya məsələsində heç bir problem yoxdur, çünki onun başqaları ilə identifikasiyası kvaziavtomatik bir şeydir. Uşaq öz "əhəmiyyətli başqalarının" dünyasını mümkün dünyalardan biri kimi yox, yeganə mövcud olan və yeganə fikrə gətirilən dünya kimi internalizə edir, yəni daxilinə çəkir.

Ona görə də ilkin sosiallaşma prosesində internalizə olunan dünya şüurda daha möhkəm kök salır, nəinki ikinci sosiallaşma prosesində internalizə olan dünyalar.

Yeri gəlmişkən xüsusi qeyd edək ki, hələ 1992-ci ildə postsovet məkanında (təəssüf ki, buraya Azərbaycanı aid etmək olmur) aparılmış sosioloji tədqiqatlar həm bu nəzəri müddəanın ədalətli olmasını, həm də bunun bizim reallığımızda təzahürünün spesifikliyini aşkarlamışdır.

Sorğuda iştirak edən vətəndaşlar (bunların içində gənclər çoxluq təşkil etmişdir) öz mədəni tələbatlarının ödənilməsindən və bunun səbəblərindən bəhs edən anketlərə cavab verərkən məlum olmuşdur ki, insanlar ən ağır hallarda valideynlərə, ailə üzvlərinə müraciət edirlər. Hər halda belə bir həqiqət aşkar edilir ki, insanın öz fərdiliyinə olan ixtiyarı, ona arxalanması onların gerçəkliyə münasibətinin ən yüksək formasıdır (5).

Hər halda sosioloji tədqiqatların ən mühüm nəticəsi budur ki, ailə bu gün ilkin sosiallaşmanın əsas institutudur, lakin ailə ikinci sosiallaşmanın mühüm institutu olan kütləvi informasiya vasitələri ilə (KİV) kəskin rəqabət şəraitində

fəaliyyət göstərməli olur. Bu gün məktəb ikinci sosiallaşma prosesində, demək olar ki, o qədər də əhəmiyyət kəsb etmir. Əlbəttə, bu subyektiv fikir də ola bilər, hər halda belə bir fakt xüsusilə gənclər arasında mövcuddur.

Lakin istər obyektiv, istərsə də subyektiv mülahizələri qeyd etməklə yanaşı deyilməlidir ki, məktəb və təhsil mahiyyətcə ikinci sosiallaşmanın faktoru kimi əhəmiyyətini itirməmişdir. "İkinci sosiallaşma institutlaşmış, yaxud institutsional əsaslandırılmış altdünyaları internalizasiyasıdır. İkinci sosiallaşma birbaşa, yaxud dolayısı yolla əmək bölgüsü ilə bağlı olarkən spesifik rol – biliyinin əldə edilməsi deməkdir (6).

Başqa sözlə, ilkin sosiallaşma prosesində adam bir növ "bazis dünyasına" yiyələnir, təhsildə və yaxud sosiallaşma fəaliyyətindəki sonrakı addımlarını bu və ya digər dərəcədə həmin dünyanın konstruktorları ilə "razılaşdırır". Burada təhsil üçün başlıca problem isə bundadır ki, uşağın başqa mühüm hesab etdiyi nə iləsə emosional yüklənmiş identifikasiyası olmasa ilkin sosiallaşma baş verə bilməz, ikinci sosiallaşma bunsuz da keçinə bilər və yalnız insanlar arasında işlənilən kommunikasiyanın tərkib hissəsi olan qarşılıqlı identifikasiya fonunda səmərəli keçə bilər. Kobud deyilsə də, insan anasını müəllimdən çox sevməlidir. Yetkin həyat dövründə sosiallaşma adətən ona görə başlayır ki, fərdin subyektiv reallığının radikal transformasiyası məqsədilə uşaqlığın emosional xatirələrini üstələsin (6).

Beləliklə, sosiallaşma prosesinin faktorlarını və komponentlərini prinsipcə tam başa çatmış hesab etmək olmaz və buna görə də, həyatın hər yeni fazasında sosiallaşma subyekti öz yönümlənməsini dəyişməli və hərəkət üçün yeni qabiliyyətləri mənimsəməlidir. Bu, həm də ona görə vacibdir ki, cəmiyyətin özü də adamların sosial qəbul olunmuş və bəyənilmiş fəaliyyət formalarını kəskin şəkildə dəyişdirə bilər.

Mədəniyyətin iqtisadi, siyasi və digər elementlərinin sürətlə dəyişilməyə məruz qaldığı müasir sənayecə inkişaf etmiş ölkələrdə "həyatla ayaqlaşmaq" üçün təhsilin köməyinə arxalanırlar.

Dinamik təhsil sistemi insanın sosial mahiyyətinin təşəkkülü, ictimai münasibətlərə cəlb olunması, onun ictimai həyat subyekti formalaşması prosesi kimi başa düşülən sosiallaşmanın uğurlu təminatının ən mühüm faktorudur. Fərdin sosial təcrübəni həqiqi mənimsəməsi isə öz strukturuna ətraf mühitə (nəinki məktəbdə, həmçinin ilk növbədə, məktəbdən kənarda) fəal uyğunlaşmasını, fərdin həmişə öz dəyərləri, normaları və nümunələri ilə daim müəyyən sosial mühitdə yaşaması ilə bağlı sosial fərdlərin "avtomatik" tərbiyə edilməsi kimi adaptasiyasını daxil edir.

Sosiallaşma prosesində subyektin identikliyinin saxlanması məsələsi təfsilatlı şəkildə öyrənilməli müstəqil problemdir, hələlik isə qısa da olsa sosiallaşan şəxsiyyətin subyektliyinin ardıcıl dərk olunması zamanı meydana gələn başlıca problem üzərində dayanaq. Subyektin identikliyi problemi, P.Riker tərəfindən formulə edilmişdir. Tədqiqatçı İ.S.Vdovina qeyd edir ki, P.Rikerin təhlilində şəxsiyyətin identikliyinin mahiyyəti antinomik səciyyə

daşıyır: biz gah subyekti daim özünə identik olan kimi qəbul edirik, gah da özünüidentik subyekti substansional xülya sayırıq. İnsan özlüyü bu dilemmadan qaça bilər, bu şərtlə ki, onun identikliyi dinamik identikliyin modelinə uyğun gələn vaxt strukturuna əsaslanmış olsun. Rikerin təsvir etdiyi "fərdi özü ilə bağlayan, onu yaddaşa daxil edir və irəliyə proyeksiya edir."(7)

Sosiallaşma prosesi üzrə son tədqiqatların təsiri altında təhsil prosesində tərbiyəvi təsirlər haqqında təsəvvürlər xeyli dəyişmişdir. Onlar artıq avtonom və təcrid olunmuş sosial hərəkətlər kimi nəzərdən keçirilmir, əksinə spesifik, lakin şəxsiyyətin inkişafına ictimai təsirlərin məcmusunun inteqral hissəsi kimi başa düşülür. Bu sosioloji yanaşmanın təsiri altında dərk olunmuş müasir pedaqogika, təhsil praktikası tərbiyənin təsirinin baş verdiyi sosial şəraiti nəzərə alır. Bu cür anlam tərbiyə anlayışının genişlənməsi prosesində öz nəzəri ifadəsini tapır. "İstiqamətlənməmiş (qeyri-intonsional) tərbiyə", "funksional" tərbiyə növləri meydana gəlir. Bunlar da belə bir faktı əks etdirir ki, hər bir tərbiyə hərəkətində şüurlu və məqsədyönlü komponentlər, hər halda, əvvəlcədən düşünülməmiş və qeyri-şüuri impulslarla əlaqələndirilir.

Daha ciddi mənada belə bir mülahizə qəbul edilir ki, sosial mühitin faktorları "tərbiyə etmir, həmişə fəaliyyətdə olan şəxslər tərbiyə edirlər. Sosial əhatənin başqa elementləri tərbiyə fəaliyyətini müəyyən edən faktorlardır, lakin həmin fəaliyyətin özü deyildir. Burada söhbət məhz sosial mühitin qeyri-şəxsi faktorlarından gedir.

Sosiallaşma əvvəlcə, mövcud cəmiyyətdə böyüməkdə olan nəsli həyata hazırlamaq üzrə kortəbii və institusional formalaşmamış fəaliyyətdə təzahür edir. Bilavasitə qarşılıqlı təsir altında uşaqlar təkcə əmək və kommunikasiya vərdişlərini deyil, həmçinin cins-yaş, sosial rol imkanlarından asılı olan status-rol mövqelərini mənimsəyirlər, bununla da həyatın müxtəlif sahələrində tədricən yaşlıları əvəz edirlər. Bu işdə təbii ki, onların fiziki, əqli, təşkilati qabiliyyətləri həyatda tutacaqları yer üçün hazır olmalıdır (8).

Bu lokal proses müəyyən fəaliyyət növünün tam mənimsənilməsi ilə başa çatır. Şübhəsiz ki, bu prosesdə fərdin birgə həyatda iştirakı və bu fəaliyyətin ictimai qiymətləndirilməsi çox vacibdir.

Bu sosiallaşma fəaliyyətinin qiyməti haqqında mühüm müddəa müəyyən müstəqil sosial qrupa daxil olmuş fərd tərəfindən aydınlaşdırılmağı tələb edir. Lakin Rusiya Federasiyasında aparılan sosioloji tədqiqatlar göstərir ki, 1991-1993-cü illərin böhran vəziyyətinə baxmayaraq əhalinin gənclərdən ibarət hissəsi nikbinliyini itirməmiş, gələcəyə ümidlə baxmışlar. Hər halda hesab etmək olar ki, gənc nəslin, əsasən, söz azadlığı, mətbuatın demokratikləşdirilməsi şəraitində yaşaması (təbii ki, sosial ziddiyyətlər nəzərə alınırdı) müəyyən dərəcədə müsbət sosiallaşma imkanı yaratmışdır.

Beləliklə, yuxarıda araşdırılan faktları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, bu gün mövcud ümumi sosiallaşma nəzəriyyəsi inkişaf etsə də, iki mühüm istiqamətdə zənginləşdirilməyə ehtiyac duyulur: birincisi, sosiallaşmanın formalarını dəyişdirməyə, layihələşdirməyə, yaratmağa, buna təminat

verməyə cəhd göstərən müxtəlifcinsli ictimai qüvvələrin və proseslərin hərəkətini nəzərə almaq; ikincisi, sosiallaşma obyektinin əks qarşılıqlı təsirlərini nəzərə almaq, çünki aydın olmuşdur ki, həmin obyekt, hər halda, subyekt də ola bilər, insanların, xüsusilə gənclərin sosiallaşması prosesinə ictimai-ənənəvi nəzərdən keçirilən subyekt kimi təsir göstərə bilər. Bu təsirlər çox zaman əvvəlki təsirlərə reaksiya kimi deyil, spontan hərəkət kimi təzahür edə bilər.

Bizə elə gəlir ki, bu gün təhsildən və onda cərəyan edən bəzi proseslərdən sosiallaşma vasitələri kimi istifadə cəhdlərini bu cür qiymətləndirmək mümkündür. İkinci sosiallaşma faktoru kimi reallaşarkən həqiqətən də eyni zamanda bir neçə funksiyanı həyata keçirir, elə buna görə də onu müxtəlif tərəflərdən nəzərdən keçirməklə bəzən bir-birini tamamlayan aspektləri aşkar etmək olar.

Biz istərdik ki, şəxsiyyətin yeni simasını və onun humanist dəyərlərə münasibətinin formalaşması prosesində təhsilin əhəmiyyəti üzərində qısaca dayanaq.

Hazırda təhsil fəaliyyətinin çərçivəsi kifayət dərəcədə müəyyənləşməmişdir və bu o deməkdir ki, təhsil prosesində alınan nəticələrin qiymətləndirilməsinin dəqiq meyarları da yoxdur. Buna xüsusi diqqət yetirmək lazımdır. Çünki bu məqam ikinci sosiallaşmanın dərinliyini və genişliyini açmaq üçün böyük əhəmiyyət kəsb edir.

Təhsil prosesində özünəməxsus dünya ənənələrinin və meyllərinin mövcudluğu və təzahürü heç kəsdə şübhə doğurmur. Hazırda Azərbaycan gerçəkliyi üçün vacib məsələ cəmiyyətimiz qarşısında duran aktual problemləri təhsilin köməkliyi ilə həll etmək mexanizmlərini işləyib hazırlamaqdır. Bütün hallarda başlıca məsələ təhsilin effektliliyini humanizm və biliyin humanistləşdirilməsi ilə əlaqələndirmək lazımdır. Lakin bu, heç də asan məsələ deyildir və xüsusi tədqiq olunmalı problemdir.

Belə bir mövqe mövcuddur: humanistləşmə bəzən humanizmin "praktik həyata keçirilməsi" kimi şərh edilir (9). Bunu o qədər də düzgün hesab etmək çətindir. Bizə elə gəlir ki, humanistləşdirmə prosesinin mənası təhsildən daha geniş çərçivədə açılır. Məsələ burasındadır ki, belə halda təhsilin özü (özündə humanistləşdirmə funksiyasını daşısa da), hər şeydən əvvəl, ikinci sosiallaşmanın bir vasitəsidir. Onda birinci problem meydana çıxır: bütövlükdə təhsilin sosiallaşma prosesində yerini dərk etmək və yalnız sonra humanistləşmənin də yeri aydınlaşar. Bunun əhəmiyyəti nədədir? Bundadır ki, problemin belə qoyuluşunda cəmiyyət üçün faydalı olan sosiallaşma subyekti tədqiqatının diqqət dairəsindən qaçmır. Başqa sözlə, şəxsiyyət bütöv sosiallaşma prosesində olan fərd kimi qəbul edilir yəni o, həyat fəaliyyəti prosesində həm mənəvi, həm də maddi dəyərləri mənimsəyən şəxsiyyət kimi çıxış edir (yalnız təhsil prosesində deyil, təhsil sistemində də sosiallaşma birtərəfli sosiallaşma olur).

Belə yanaşmada ikinci institutsional sosiallaşma forması olan təhsil prosesində şəxsiyyətin hansı dəyərləri, normaları, idealları mənimsəməsi barədə dəqiq fikir söyləmək imkanı əldə edirik və digər dəyər və normaları başqa bir

yerdə, mühitdə necə əldə etməsi və bunun şəxsiyyətin real davranışında necə əlaqələndirilməsi barədə mühüm təsəvvürlərə malik oluruq. İlkin və ikinci sosiallaşmanın elementlərinin əlaqəsi və nisbəti sosioloji baxımdan ölçüyə gələndir.

Beləliklə, demək mümkündür ki, insanın təhsil alması prosesinin humanistləşdirilməsi probleminin abstrakt qoyuluşu konkret tarixi, sosial-fəlsəfi məna kəsb edir. Cəmiyyətin sosiallaşma fəaliyyətinin qiymətləndirilməsinin obyektiv meyarları, o cümlədən humanistləşmənin obyektiv meyarları meydana gəlir.

Daha mühüm cəhət budur ki, təhsilin humanistləşdirilməsi müəllimdən daha çox şey verə bilməz. P.Berqer və T.Lukman haqlı olaraq qeyd edirlər ki, müəllimlərin institusional funksioner kimi təyinatları sosial biliyi ötürməkdir. İkinci sosiallaşma zamanı rollar yüksək dərəcəli anonimliklə səciyyələnirlər. Müəllimin verdiyi həmin bilik başqalarına da ötürülə bilər (6).

Belə bir şübhə də yarana bilər – bu cür yanaşmada təhsilin effektliliyi və təhsilin humanistləşdirilməsi prosesindən uzaqlaşmaq cəhdi yaranırmı? Bizcə, yox. Ona görə ki, belə halda şəxsiyyətin sosiallaşmanın müxtəlif institutlaşmış və institutlaşmamış formalarının məsuliyyət və səriştəlilik zonaları aydın və dəqiq fərqləndirilir. Məsələn, gənc vətəndaşa, belə halda, yalnız təhsilin vasitəsilə baxılmır, hər şeydən əvvəl, ilkin və ikinci sosiallaşma proseslərində ona əlçatar olan fəaliyyətinin real universunun vasitəsilə nəzərdən keçirilir. Şəxsiyyətin real humanist dəyərləri məhz burada təzahür edir. Həmin prosesdə müəllimin davranışı da dərk edilmiş və əsaslandırılmış olur.

**ƏDƏBİYYAT**

1. http: //www. Biz. / materials/ view/ 1825 html? Next =7
2. Durkheim E. Edication et Sociologie. Paris. 1922. p. 30.
3. Dictionary of Sociology Pengum Books. 1989. p. 204.
4. Серафимова З. Проблемы социализации личности в условиях НТП. Диссерт. канд. филос. наук. М., 1990. 149 с.
5. Воронков С.Г. Иваненков С.П., Кусжанова А.Ж. Социализация молодежи: проблемы и перспективы. Оренбург: 1993, с 22-24
6. Бергер П., Лукман Т. Социальные констуцирование реальности. М.: Медиум, 1995, с.225.
7. Рикер П. Герменевтика. Этика. Политика. М.: АОКАМИ, 1995. с.154
8. htt: www. djerelo. com. /index. php? option =com – contents. task =3244 s İtemid =259
9.Вялых В.А., Стрелец Ю.Ш. Гуманитаризация образовательной системы: сущность и пути реализации. // Теоретические и методические аспекты гуманитаризации образования. Оренбург: ОНУУ, 1995, с.6.

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ СОЦИАЛИЗАЦИИ ЛИЧНОСТИ

**А.М.ИМАНОВА**

**РЕЗЮМЕ**

В статье кратко раскрывается сущность проблемы регулятивных функций социальной коммуникации и социализации личности, определяются информационные компоненты социальной коммуникации, смыслообразующие ее элементы, такие как: идентификация, стратия, рефлекция, механизмы принятия роли. В связи с этим отмечается значение внутреннего мира личности, моделирующих представлений о «среде» ее сознания в процессе социализации. Рассматривается положительная роль осуществления функций социальной коммуникации, с помощью средств массовых информаций в формировании среды социализации, подчеркивается особая значимость средств массовой информации в реализации регулятивных функций социальной коммуникации. Показывается фундаментальная роль гуманизации образовательного процесса, его благотворное влияние на социализацию личности.

**Ключевые слова:** социализация личности, социальная коммуникация, регулятивные функции, идентификация, идентификация субьекта

## ACTUAL PROBLEMS OF AN INDIVIDUAL'S SOCIALIZATION

**A.M.IMANOVA**

**SUMMARY**

The article deals with the essence of the problems of regulatory functions of social communication and an individual's social communication, its meaning marking elements such as identification, strata, reflexion, the mechanism of taking roles. In connection with this, the inner-self of an individual modelizing the perception of "the medium" in the process of socialization is earmarked.

The author studies the importance of applying functions of social communication with the help of means of Mass Media in forming socialization, and marks the significance of means of Mass Media in the realization of regulatory functions of social communication.

The fundamental role of humanization of the education process, as well as its influence on an individual's socialization are analyzed in the article.

**Key words:** individual's socialization, social communication, regulatory functions, identification, the identification of a subject